***Zəngin qəhrəmanlıq ənənələri olan Lerikdə gənclərin vətənpərvərlik tərbiyəsinə hər zaman ciddi önəm verilib. Elə rayonun yetirmələri də daim öz fədakarlıqları ilə seçiliblər. Hər iki Qarabağ müharibəsində bu torpağın oğulları öndə gedib, ölümün gözünə dik baxıblar. Onların hamısının adı rayonda böyük hörmətlə çəkilir.***

***...Qarabağ işğaldan azad olunduqdan sonra ilk dəfə keçirilən 28 May – Respublika Günü lerliklilər üçün həm də Veri inzibati ərazisinin Babakücə kəndində Şəhidlərin xatirə abidəsinin açılışı ilə əlamətdar oldu. Mərasimə toplaşanlar ölkəmizin ərazi bütövlüyü uğrunda döyüşlərdə qəhrəmanlıq göstərərək canından keçmiş Vətən oğullarının, o cümlədən bu ərazinin yetirmələrinin xatirəsini ehtiramla yad etdilər, məzarları üstünə tər çiçəklər düzdülər, abidə önünə əklillər qoydular.***

# Lerik gənclərini yüksək vətənpərvərlik amalı birləşdirir







Lerik Rayon İcra Hakimiyyəti başçısının səlahiyyətlərini icra edən Cəlil Baxşıyev Azərbaycanın şöhrət tarixinə qızıl hərflərlə yazılmış qəhrəmanlıq səhifələrindən bəhs etdi, Qarabağın mənfur düşməndən təmizlənməsində rəşadət göstərmiş lerikli gənclərin həyatının əsl örnək olduğunu bildirdi. Birinci Qarabağ müharibəsində Veri ərazisindən döyüşçü Xudaverən Rəhimovun "Hərbi xidmətlərə görə" medalına, İkinci Qarabağ müharibəsində Şuşa fatehi, mayor Zaur Rəhimovun "Zəfər", kapitan Rəşad Qasımovun "Azərbaycan bayrağı", leytenant Anar Hüseynovun "Vətənə xidmətə görə" ordenlərinə, baş leytenant Layiq Rəhimovun və əsgər Rusif Qasımovun müxtəlif medallara layiq görüldüklərini qeyd etdi. Milli Məclisin deputatı İqbal Məmmədov, Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti Lerik rayon şöbəsinin rəisi Arif Həsənov, abidənin ərsəyə gəlməsində əməyi olan İldırım Sultanov, ağsaqqallar və ziyalılar ürək sözlərini söylədilər. Məktəblilərin ifasında şeirlər səsləndirildi.

2008-ci ildə Lerik şəhərində möhtəşəm Şəhidlər kompleksi yaradılıb. Birinci Qarabağ müharibəsində bu rayon 130-dan çox şəhid verib. İkinci dünya müharibəsində isə faşizmlə qarşı mübarizədə 6500 lerikli iştirak edib, onlardan bir çoxu qəhrəmanlıqla həlak olub. Bütün şəhidlərin adları mərmər lövhənin üzərində həkk olunub. Hazırda isə Şəhidlər xiyabanı yenidən qurulur, orada 44 günlük zəfər yürüşündə həlak olmuş qəhrəmanların da şəkil lövhələri əlavə edilir. 9 May – Qələbə Günündə rayonda İkinci dünya müharibəsinin iştirakçıları layiqincə yad ediliblər. Bundan bir neçə gün sonra "Yaşat" Fondunun nümayəndələri Şingədulan kəndinin igid oğlu, qazi Rəvan Şahbazova baş çəkərək lazımi kömək göstəriblər. Mayın 19-da isə şəhidlik zirvəsinə ucaldığı məlum olan, bunadək itkin düşmüş hesab edilən müddətdən artıq həqiqi xidmət hərbi qulluqçusu Təbriz İbrahimovun nəşi doğma rayona gətirilərək böyük sayğı ilə dəfn edilib.

Lerikin beş igid oğlu Azərbaycanın Milli Qəhrəmanı adına layiq görülüb: Valeh Müslümov, Fəxrəddin Şahbazov, Rövşən Abdullayev, Fərhad Ağayev və Əsgər Əliyev. Ötən ilin payız zəfər yürüşündə isə tank komandiri, mayor Amid Heydərova ölümündən sonra Vətən Müharibəsi Qəhrəmanı adı verilib. Hərbi komissar Arif Həsənov bizimlə söhbətində onların hər birinin adını iftixarla çəkdi, xatirələrinin daim əziz tutulduğunu bildirdi. Həmçinin söylədi ki, əks-hücum əməliyyatları başlanan andan hər kəs şöbəyə müraciət edərək döyüş zonasına göndərilməsini xahiş edib, amma qismən səfərbərlik elan olunduğu üçün onlardan yalnız bəziləri cəbhəyə yola salınıb. Şəhidlərin qarşılanması, dəfn mərasimləri də yüksək qədirbilənliklə keçirilib.

Döyüşlərdə qəhrəmancasına şəhid olmuş polkovnik-leytenant Mehman Şirvanov, miçman Elvin Səfərov "Qarabağ", leytenant Murtuz Abbasov, kiçik gizir Təbriz Talıbov, əsgər İmaməli İbrahimov 3-cü dərəcəli "Vətənə xidmətə görə", baş leytenant Əliqismət Yaqublu, XTQ giziri Vasif Mehbalıyev "Azərbaycan Bayrağı" ordenləri və medallarla təltif ediliblər. Döyüşlərdə qəhrəmancasına şəhid olan digər leriklilər də Prezident sərəncamı ilə müxtəlif dövlət mükafatlara layiq görülüblər. Davanın od-alovundan mətanətlə keçmiş və hazırda sağ-salamat Vətənə xidmət edən Lerik igidləri də az deyil. Onlardan biri – Şuşanın alınması xəbərini Ali Baş Komandana məruzə edən Daxili Qoşunların XTD komandiri Zaur Rəhimov aldığı "Zəfər" ordenini sinəsində qürurla gəzdirir.

Lerik Rayon İcra Hakimiyyəti aparatında Vətən müharibəsi iştirakçıları və şəhid ailələri ilə işin təşkili şöbəsi yaradılıb. Burada qanlı döyüşlərdən çıxmış gənclər çalışırlar. Şöbənin qapısı gün ərzində hər bir şəhid ailəsi üzvünün, qazinin və müharibə iştirakçısının üzünə açıqdır. Onların müraciətlərinə böyük həssaslıqla yanaşılır, qaldırdıqları məsələlər operativ həllinin tapır. Elə ötən ay rayon rəhbərliyi bir neçə şəhid valideynini və döyüşlərdə sağlamlığını itirmiş Vətən müharibəsi iştirakçısını qəbul edib. Bildirilib ki, Prezidentin tapşırığına uyğun olaraq, onların hərtərəfli sosial təminatla əhatə olunması həmişəlikdir. Şəhid valideynlərinin və qazilərin problemləri dinlənilib. Müraciətlər əsasən fərdi yaşayış evinin tikintisi, şəhid adının əbədiləşdirilməsi, işlə təmin edilmə, maddi yardım və digər məsələlər barədə olub. Qaldırılan problemlərin bir qismi yerindəcə həll olunub, bir qismi nəzarətə götürülüb, digərlərinin araşdırılması və lazımi tədbirlərin görülməsi ilə bağlı tapşırıqlar verilib. Bundan başqa, bayramlarda, doğum günlərində şəhid ailələri və qazilər sovqatlarla ziyarət olunurlar.

Vətən Müharibəsi Qəhrəmanı Amid Heydərovun atası Rəbbil kişinin dedikləri:

– Fəxr edirəm ki, iki dəfə Sovet İttifaqı Qəhrəmanı, tank qoşunları qvardiya general-mayoru Həzi Aslanov məktəbinin davamçısı kimi, bu peşəyə dərindən yiyələnən oğlum Amid döyüş meydanında qəhrəmanlıq nümunəsi göstərib və müzəffər Ali Baş Komandan İlham Əliyev tərəfindən belə bir yüksək ada layiq görülüb. Vətən müdafiəçisi olmaq arzusu onu Cəmşid Naxçıvanski adına Hərbi Məktəbinə aparıb çıxarmışdı. Daha sonra təhsilini Heydər Əliyev adına Ali Hərbi Məktəbdə davam etdirdi, hərb sənətinin sirlərinə mükəmməl yiyələndi... Amid Aprel döyüşlərində Lələtəpəyə çıxan ilk tankçı olub. 32 yaşında artıq hərbi hissə komandiri idi. Vətən müharibəsində hücum əmri veriləndə də ilk cəsur döyüşçülərimizdən biri kimi öz tankı ilə düşmənin müdafiə xəttini yarıb. Füzuli istiqamətində gedən döyüşlərdə düşmənə göz açmağa imkan verməyib. Son mərmisinə və son nəfəsinədək döyüşüb.

Amidin anası Şükufə xanım, həyat yoldaşı Nuranə xanım, qardaşı Asim də onun adı ilə fəxr etdiklərini söyləyir və göstərilən diqqətə, qayğıya görə dövlətimizə, Prezident İlham Əliyevə dərin minnətdarlıqlarını bildirirlər.

Lerikli şəhidlərdən ikisi bir vaxtlar ümummilli lider Heydər Əliyevlə şəxsi dostluğu ilə məşhurlaşmış xeyriyyəçi fermer Xanış Şahıyevin nəvələri Elgün və Altay qardaşlarıdır. Xatırladaq ki, Birinci Qarabağ savaşında çoban Xanışın oğlu Camal Şahıyev də şəhid olmuşdu. Əslən Lerikdən olan İman və Bəhram Məmmədov qardaşları isə Vətən müharibəsində eyni gündə şəhid olublar. Milli Məclisin Mədəniyyət komitəsinin sədri Qənirə Paşayeva onların ailəsini ziyarət edib və qardaşlar haqqında ürək sözlərini "Xalq qəzeti" üçün yazdığı məqalədə qələmə alıb.

Dağlar diyarının ünlü qələm sahibləri də qəhrəman həmyerliləri haqqında gözəl əsərlər yaradıblar. Lerikli şəhidlərə həsr olunmuş ilk kitabı BDU-da tələbə yoldaşım olmuş Əməkdar jurnalist İdris Şükürlü yazıb. O, həmin kitaba "Ölsəm, inanma" adını verib. Ümumiyyətlə, İdris müəllim Qarabağ müharibəsinə və şəhidlərimizə 5 kitab həsr edib. Hazırda da Vətən müharibəsinin şəhidləri barədə oçerklər yazır və 6-cı kitabını çapa hazırlayır. Əlbəttə, bütün bunlar qəhrəmanlığa ayna tutan salnamədir.

Belə bir salnamə yazmaq şərəfi gənc qələm dostum, Prezident təqaüdçüsü Xalid Mahmuda da nəsib olub. Xalidin "Əbədiyyət yolçuları" kitabı nəfis tərtibatla nəşr edilib. Kitabın məsləhətçisi Birinci Qarabağ müharibəsinin qazisi, "Rembo" ləqəbli Elxan Əlibəylidir. "Hərbi xidmətlərə görə" medalı ilə təltif olunmuş Elxan hazırda Hollandiyada yaşasa da, ürəyi Azərbaycanla, Qarabağla döyünür. Yeni kitabın nüsxələri şəhid ailələrinə hədiyyə ediləcək. Hazırda qəhrəman qazilər haqqında kitabın çapına hazırlıq gedir.

Lerikdə Xalid Mahmudun atası, şair Qəddiməli Əhmədlə görüşüb söhbət etdim. O da şəhidlər haqqında yeni əsərlər üzərində çılışdığını bildirdi. Beləcə, hər kəs Vətən naminə bacardığını edir. Onu da öyrəndim ki, Çayrud kəndindən həkim-travmatoloq, məşhur akademik İlizarovun davamçısı Əbülfət Həmidov 2 -ci Qarabağ müharibəsi başlanan gündən könüllü olaraq cəbhəyə gedib. O döyüşlərdə yaralanan 300-dən çox əsgərimizi əməliyyat edib.

Bəli, Lerikdə vətənpərvərlik ruhu çox güclüdür. Gənclər Qarabağın işğaldan azad olunmasında iştirak etmiş, bu yolda canını əsirgəməmiş eloğluları ilə qürur duyduqları kimi, özləri də Vətənin hər bir çağırışına hazırdırlar.

***Əli NƏCƏFXANLI,***
***"Xalq qəzeti"***